**Fuad Cəfərli**

# Dardanel boğazı

***Mənə görə ədəbiyyat boz dünyanın mavi təbəssümüdür. Bildiyiniz kimi, təbəssümsə dünyanın ən gözəl hədiyyəsi olmaqla yanaşı, eyni zamanda ən güclü silahıdır. Bu silahısa Tanrı hər kəsə vermir.***



Azərbaycan ədəbiyyatında istər həyatdan götürülmüş, istərsə də təxəyyül məhsulu olan bir çox ədəbi personajlar var. Həmin personajlar tənqidçilər tərəfindən bütün dövürlərdə uğurlu tapıntı hesab olunub. Kitab sevərlərin hamısı o personajları çox yaxşı tanıyır. Nədənsə indi bəhs edəcəyim ədəbi personaj bir çoxlarının nəzərindən qaçıb. İllərdi qeyd edəcəyim personaja ədəbi müzakirələrdə rast gəlməmişdim. Ta ki, gecələrin birində Mirzə Fətəli Axundov adına Milli Kitabxananın nəznində açıq səma altında fəaliyyət göstərən kitabxanda qeyd etdəcəyimpersonjla qarşılaşana qədər.



***Görkəmli yazıçı, pedaqoq və alim Mir Cəlal Paşayevin bir çox janırlarda irili-xırdalı qələmə aldığı gözəl əsərləri var. Ədibin "Bir gəncin manifesti", "Badam ağacları", "Nazik mətləb" "Dirilən adam" kimi əsərləri istər ədəbiyyatçılar, istərsə də oxucular tərəfdən yüksək qiymətləndirilib. Doğrudur, sadaladığım əsərlər həyatn sərt döngələrindəki iti bucaqları özündə əks etdirir.***

Lakin qeyd edəcəyim personajsa tam əksinə satirik-yumoritsik ədəbi personajdır. Bildiyiniz kimi, Mir Cəlal Paşayev həm də möhtəşəm satirik-yumoristik əsərlər yazıb. Bunlardan "Dardanel" felyetonunu qeyd etmək kifayət edər ki, ədibin hadisələrə yumoristik yanaşmasında peşəkarlığın dəqiq ölçüsünü görəsən. Bilirsiniz pivə krantını dünyanın ən dar boğazı olan Dardanelə oxşatmaq yazıçıdan incə dəqiqlik istəyir. Düzdür deyirlər ki, təşbehdə qüsur olmaz. Amma bilinən odur ki, çəkilən hər təşbeh də qeyd etdiyim təşbeh kimi uğurlu olmaz. Kiçik felyetonda yazıçı hadisələrin baş verdiyi zamanın psixoloji alt qatıyla yanaşı, məkanın vizual göüntüsünüqısa ştrixlərlə olsa da çox dəqiq verə bilmişdir.

***Hələ yumoristik personajımız Dardanel Qurbanın sərgüzəştlərini, ticarətə özünə məxsus çəpəki baxışını demirəm. Bir sözlə sonda felyeton haqqında düşüncələrimi burada yekunlaşdırıram ki, intizarda qalmış əziz oxucu həmin əsəri həvəslə tapıb oxusun. Çünki "Dardanel" ədəbiyyatımızın ən uğurlu felyetonlarından və ya" boğazlarından" biridir.***

**Səhifəni hazırladı: Emil Rasimoğlu**